BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2009*

# XX ƏSRİN ORTALARINDA SSRİ-nin AZƏRBAYCAN SİYASƏTİNDƏ ERMƏNİ FAKTORU

**K.F.MAHMUDOV**
***Lənkəran Dövlət Universiteti***
***kamal-1965@mail.ru***

*Məqalədə XVIII əsrdən başlayaraq Rusiyanın Cənubi Qafqaza münasibəti, işğalçılıq siyasəti və öz planlarını həyata keçirərkən ermənilərə üstünlük verilməsi, azərbaycanlıların dəfələrlə öz doğma yurdlarından deportasiya edilmələri əksini tapmışdır.*

XVIII əsrin əvvəllərində Azərbaycanı işğal etmək planlarını həyata keçirməyə cəhd edən Rusiya ermənilərdən bir vasitə kimi istifadə etməyə çalışırdı. Təsadüfi deyil ki, I Pyotr 1724-cü ildə erməniləri ruslar tərəfindən işğal olunmuş Xəzəryanı bölgələrdə yerləşdirmək barəsində fərman vermişdi.

XIX əsrin əvvəllərində Rusiya-İran və Rusiya–Osmanlı müharibələri Rusiyanın qələbəsi ilə başa çatdıqdan sonra Rusiya tərəfindən ermənilər kütləvi şəkildə İrəvan, Naxçıvan, Qarabağ bölgələrinə köçürüldü. Bununla da Azərbaycanın bugünkü bəlalarının bünövrəsi çar Rusiyasının əli ilə qoyuldu (4, 312)

Birinci rus inqilabı və I Dünya müharibəsi illərində Azərbaycanlılara qarşı etnik təmizləmələr həyata keçirməyə çalışan ermənilər Rusiya imperiyasının çökməsindən sonra Cənubi Qafqazda daha da azğınlaşaraq Bakıda və bir sıra digər bölgələrdə azərbaycanlılara qarşı soyqırım törətdilər Azərbaycana qarşı qəsbkarlıq siyasəti yerində Ermənistan Respublikası AXC-nin bolşevik Rusiyası tərəfindən işğal olunmasına yardım etdi.

Cənubi Qafqaz bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra ermənilər bolşeviklərin Azərbaycanda yeridikləri müstəmləkə siyasətinin həyata keçirilməsində mühüm rol oynayırdılar.

Azərbaycan torpaqlarının parçalanmasında, milli rəhbər kadrlar arasında nifaq salınmasında Moskva tərəfindən Azərbaycanda rəhbər vəzifələrə təyin edilmiş ermənilər xüsusilə fərqlənirdilər. (3, 263)

Sovet imperiyasının «Parçala və hökmranlıq et» siyasəti xalqlar arasında daim münaqişə, süni konfliktlər yaradılmasında daha aydın təzahür edirdi. Moskvanın havadarlığı ilə mərkəzdəki erməni lobbisinə arxalanan erməni millətçiləri Dağlıq Qarabağın Ermənistana verilməsi tələbi ilə çıxış edirdilər. 40-cı illərin ortalarında Moskvanın, bilavasitə A.Mikoyanın təşəbbüsü və Ermənistanda partiya elitasının fəal iştirakı ilə «gizli» «Qarabağ komitəsi» yaradılmışdı. 1945-ci ilin payızında Ermənistan rəhbərliyi növbəti dəfə ÜİK (b)P MK qarşısında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ondan alınıb Ermənistana verilməsi tələbini qoyur. ÜİK (b)P MK-nın katibi Q.M.Malenkov Azərbaycanın rəhbəri M.C.Bağırovun bu məsələyə münasibətini öyrənir. (3, 382-383) Bu sorğuya cavab verərkən Bağırov Ermənistan rəhbərliyinin Dağlıq Qarabağın Ermənistana verilməsini əsaslandırmaq üçün irəli sürdüyü dəlillərin

əsassız olduğunu bildirir, lakin cavabının sonunda əhalisinin əksəriyyəti azərbaycanlı olan Şuşa rayonundan başqa Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistana birləşdirilməsinə belə bir şərtlə razı olduğunu bildirir ki, Ermənistanın Azərbaycanla sərhəd olan və başlıca olaraq azərbaycanlıların yaşadıqları üç rayon Azərbaycanın tərkibinə daxil edilsin. (2, 100) Lakin bu şərt nəinki Ermənistanı, eləcə də Moskvanı təmin etmədi. Çünki Zəngəzurun yenidən Azərbaycana qaytarılması ilə Türkiyə və Azərbaycan arasında yaradılmış erməni kordonu ləğv edilmiş olardı. Əksinə, bu kordonu möhkəmləndirmək üçün tədbirlər görüldü. (5, 306) 1947-ci il dekabırın 23-də SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» qərar verdi. 1948-ci il 10 mart tarixli daha bir qərarla bu işi həyata keçirmək üçün konkret tədbirlər planı müəyyən olundu. Qərara görə 100 min azərbaycanlı 1948-1950-ci illərində «könüllülük prinsipinə əsasən» Azərbaycana köçürülməli idi. Sovet hökuməti azərbaycanlıların çıxarıldığı ərazilərdə xaricdən gələn ermənilərin – axbarların yerləşdirilməsinə icazə verdi (3, 383).

Beləliklə azərbaycanlıların Ermənistan SSR ərazisindəki dədə-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başladı.

Deportasiya tədbirləri Ermənistanın 22 rayonunu əhatə edirdi. Bu rayonlar əsasən azərbaycanlıların yığcam şəkildə, yaxud ermənilərlə qarışıq halda yaşadıqları dağlıq və dağətəyi rayonlar idi.

Ermənitandan deportasiya olunmuş azərbaycanlılar Azərbaycan SSR-in Kür-Araz ovlağında və digər rayonlarında yerləşdirilərkən burada yaşayan ermənilər tərəfindən təqib olunurdular. Ermənilərin Azərbaycanda bu özbaşınalığına respublikanın XDİN-də, partiya və sovet orqanlarında rəhbər vəzifə tutan Markaryan, Qriqoryan, Yemelyanov, Borşov və başqaları himayədarlıq edirdilər. Onlar ermənilərin yığcam yaşadığları DQMV və onun ətrafında yerləşən rayonlarda depotasiya olunanların yerləşdirilməsinə hər cür maneçilik törədirdilər.

Deportasiya planı erməni millətçilərinin istədiyi sürətlə həyata keçirilmirdi. Bu qeyri-insani tədbirin planlaşdırılmış şəkildə həyata keçirilməsinə bir sıra obyektiv və subyektiv səbəblər mane olurdu. Ermənilərin təkidi ilə 28 fevral 1951-ci ildə SSRİ Nazirlər Soveti «1951-ci» ildə köçürülmə planı haqqında 605 saylı məxfi qərar qəbul etsə də bu gözlənilən nəticəni vermədi. Əksinə, hətta 1951-ci ildə köçürülənlərin geriyə qayıtması halları çoxaldı. Geri qayıdanlar Ermənistanda qeydə alınmır və adi vətəndaş hüquqlarından məhrum edilirdilər. Ümumiyyətlə Ermənistan SSR-də etnik təmizləmənin bu mərhələsində 100 min nəfərdən çox azərbaycanlı zorla köçürülmüş və ya köçürülməyə məcbur edilmişdi. Onların hər üç nəfərindən biri yeni şəraitə, isti, quru iqlimə, məişət təminatsızlığına uyğunlaşa bilməyib aclıq və xəstəlikdən öldü.

1948-53-cü illərdə Ermənistan SSR-dən, öz tarixi etnik torpaqlarından deportasiya edilən azərbaycanlıların bu faciəsi hüquqi cəhətdən 1948-ci ildə BMT-nin İnsan Hüquqları Komissiyasının qəbul etdiyi qərarın II maddəsinə uyğun olaraq soyqrım və etnik təmizləmə kimi qiymətləndirilməlidir (1, 148-151).

Ermənistan və Gürcüstan respublikalarındakı ərazilərdə yüzlərlə Azərbaycan toponimlərinin dəyişdirilməsi ilə yanaşı Azərbaycanda, xüsusilə yeni sənaye mərkəzlərində, Dağlıq Qarabağda erməni əhalisinin sayının artması üçün münasib şərait yaradıldı (3, 388-389).

50-ci illərin ortalarında siyasi ab-havanın nisbətən yumşalması ilə əlaqədar Azərbaycan SSR-də müşahidə olunan milli oyanış meylləri mərkəzdə kök salmış şovinizmin daha da güclənməsinə səbəb oldu.

Milli oyanış əlamətləri hiss edilən respublikaların, o cümlədən Azərbaycanın rəhbərliyinə qarşı təqiblər başlandı. Mərkəz xalqı qorxutmaq, özünə tabe saxlamaq üçün növbəti dəfə dağlıq Qarabağ məsələsini ortaya atdı. Ermənistan SSR və Azərbaycan SSR-in DQMV erməni əhalisi Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etməyə başaldı. Ermənistanda antitürk əhvali-ruhiyyəsi yenidən qızışdırıldı. Yerevan Pedaqoci institutunun əyani və qiyabi Azərbaycan bölmələri bağlandı. Yerevan Azərbaycan Pedaqoci Texnikumu Azərbaycanın Xanlar rayonuna köçürüldü. C.Cabbarlı adına Dram Teatrı, Azərbaycan dilində çıxan rayon qəzetləri bağalndı. Ermənistanda «Qarabağ hərəkatı» xeyli leqallaşdırıldı. 1958-ci ildə erməni kotolikosu II Vazgen Bakıya səfəri zamanı respublika Nazirlər Sovetinin sədrinə Dağlıq Qarabağın Ermənistana verilməsini, Bakıda erməni ruhani seminariyasının açılmasını, hər səhər şəhərin mərkəzində yerləşən erməni kilsəsinin zəng vurmasına icazə verilməsini təklif etmiş lakin rədd cavabı almışdı. Ermənilərin güclü arxası olduğunu bilən, özlərinin təkləndiyini hiss edən azərbaycanlılar həyacan içində idilər. (1, 157-158) Məsələ 1960-cı ilin sonlarında Sov İKP MK-da müzakirə olundu. Xruşşov təklənmiş «kiçik qardaşda» ədalətli «böyük qardaşa» ümid və inamı möhkəmləndirmək üçün, habelə sərhəd dəyişikliklərinin başqa respublikalarda da arzuedilməz reaksiyalar doğuracağından çəkinib Azərbaycanın hüquqlarını müdafiə etdi. 1964-cü ildə A.Mikoyanın SSRİ Ali Sovetinin sədri kimi bu məsələnin ermənilərin xeyrinə həll etmək üçün Xruşşova təsir göstərmək cəhdi baş tutmadı. Lakin Ermənistanda antitürk psixozunun qızışdırılmasına rəvac verildi. 60-cı illərdə «Qarabağ Komitəsi» açıq fəaliyyətə başladı. (2, 388) 1965-ci il aprelin 23-də uydurma «erməni genosidi»nin 50 illiyi, cəllad Andronikin isə 100 illiyi Ermənistanda geniş qeyd olundu və bu da burada ata-bab torpaqlarında yaşayan azərbaycanlıların daha da sıxışdırılmasına güclü təkan verdi. (1, 160-161) Azərbaycanlılar rəhbər vəzifələrdən qovuldular, Azərbaycan dilində çıxan rayon qəzetləri bağlandı.

Bununla yanaşı, mərkəzin bilavasitə köməyi ilə 60-cı illərdə Azərbaycanda güclü erməni lobbisi yaradıldı. DQMV-də erməni millətçiliyi açıq şəkildə dərinləşirdi. Vilayətin azərbaycanlılar yaşayan yaşayış məntəqələrinə kömək etmək məqsədilə 1967-ci ildə ayrılan vəsaitin Bakıda DQMV-nin rayonlar üzrə bölünüb təsdiq olunması cəhdinə erməni lobbisi ciddi müqavimət göstərdi. Həmin il Xankəndində azərbaycanlılara divan tutulmuş, bir neçə nəfər qətlə yetirilmişdi. Hətta mərkəzin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il 7 may tarixli qərarı ilə sərhəd rayonlarından 2 min hektardan çox Azərbaycan torpağının Ermənistana verilməsi haqqında hələ 1938-ci ildə verilmiş qərarı təsdiq etdi. Lakin az sonra hakimiyyətə gəlmiş Heydər Əliyev bu qərarın icrasına yol vermədi (3, 388-389)

Çar Rusiyasının Qafqazda yeritdiyi müstəmləkəçilik siyasətini davam etdirən Sovet imperiyası XX əsrin 40-60-cı illərində ermənilərdən öz siyasətini həyata keçirmək üçün bir vasitə kimi istifadə edirdi.

İmperiyaya sədaqətlə qulluq edən ermənilər mümkün olan bütün vasitələrdən istifadə edərk Ermənistandan azərbaycanlıları sıxışdırıb çıxarmağa, Azərbaycanın Dağlıq Qarabağ bölgəsini, digər sərhəd ərazilərini ələ keçirməyə çalışırdılar. Moskvanın köməyi ilə öz mənfur planlarını həyata keçirməyə çalışan ermənilər Azərbaycanın müqavimət gücünü azaltmaq üçün Azərbaycanda güclü erməni lobbisi yaratmışdılar.

Ermənilərdən Cənubi Qafqazda öz siyasətni həyata keçirərkən bir vasitə kimi istifadə edən Moskva onların Azərbaycana qarşı ərazi iddialarına gizli dəstək verib, Azərbaycan torpaqlarının hissə-hissə ermənilər tərəfindən ələ keçirilməsinə yardım

etsə də, imperiya maraqlarını əsas tutaraq iki respublika arasındakı gərginliyi artırmaqla onları mərkəzin tam itatəində saxlamaq üçün bəzən ermənilərə verdiyi dəstəyi azaldır, Azərbaycan tərəfini də «müdafiə» etdiyini göstərməyə çalışırdı.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası siyasi Partiyalar İctimai-Hərəkatlar Mərkəzi Dövlət Arxivi, fond 1, siyahı 46, iş 26, 44, 71, 89.
2. Əliyev H.Ə. Müstəqil Azərbaycanın gələcəyi əbədidir. Bakı: Azərnəşr, 1996.
3. Azərbaycan tarixi. VII cilddə, VII c., Bakı: Azərnəşr, 2003, 676 s.
4. Azərbaycan Respublikası 1991-2001. Bakı: Səda, 2001, 360 s.
5. Məmmədov X., Məmmədov N. Türkiyədə və Azərbaycanda erməni millətçilərinin cinayətləri. Bakı: Elm, 2005, 215 s.
6. İsgəndərov A. Azərbaycanda Türk-Müsəlman soyqırımı problemlərinin tarixşünaslığı. Bakı: Elm, 2006, 396 s.
7. Müstəqilliyimizin 10 illiyi. Bakı: Statistika külliyyatı, Səda, 2003, 416 s.
8. Əliyev İqrar. Dağlıq Qarabağ tarixi, faktlar, hadisələr. Bakı: Elm, 1989.


## АРМЯНСКИЙ ФАКТОР ПОЛИТИКИ СССР В ОТНОШЕНИИ АЗЕРБАЙДЖАНА В СРЕДИНЕ XX ВЕКА


**К.Ф.МАХМУДОВ**



### РЕЗЮМЕ

С XVIII века Россия начала проводить захватническую политику в отношении Южного Кавказа. В реализации этих планов Россия большую роль отводила армянам.

Сменивший царскую власть в России, Советская империя в своей политике, в отношении Южного Кавказа тоже видную роль отводила армянам.

Москва широко пользовалась услугами армян в проведении колониальной политики в Азербайджане для того, чтобы держать Азербайджан в зависимости. Москва поддерживала территориальные претензии армян в отношении Азербайджана и оказывала помощь в депортации азербайджанцев из Армении.

Руководствуясь с имперскими интересами, Москва иногда «защищала» и Интересы Азербайджана. Но в этом периоде в основе Южно-Кавказкой политики Советской империи была заложена идея удовлетворения претензии армян в ущерб национальных интересов Азербайджана.


## THE ARMENIAN FACTORS IN USSR'S AZERBAIJAN POLICY IN THE MIDDLE OF XX CENTURY


**K.F.MAHMUDOV**



### SUMMARY

Russia started occupation policy against South Caucasus from XXVIII century. The Armenians were used as a means to realize this plan. Moscow made use of Armenians to realize its colonial policy in Azerbaijan and supported Armenia's territorial claims to hold Azerbaijan in obedience and Azerbaijanis' deportation from Armenia. Grounding upon empire interests Moscow sometimes defended Azerbaijan's interests.

However, South Caucasus Policy of the Russian Empire based on the satisfaction of Armenian claims this period.